# "Nizami rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər"

20 ildən çoxdur ki, paytaxtın Nizami rayonunda yaşayıram. Bu illər ərzində doğma rayonumuzun siması sanki ilbəli deyil, aybaay, günbəgün dəyişməkdədir. İllər əvvəl təkcə burada yaşayanlar deyil, həm də rayonumuza təşrif buyuranlar Nizami rayonunun xeyli dəyişməsinin canlı şahidi olurdular. Çünki əvvəllər rayonumuzda bərbad, kələ-kötürlü yollarla az qala addımbaşı rastlaşmaq mümkün idi. Yağış-qar yağanda sözügedən yollarda nəinki nəqliyyat vasitələrinin, həm də vətəndaşların sərbəst hərəkəti xeyli məhdudlaşırdı. İşıqlandırılma sistemi sıradan çıxdığından bəzi küçələrimiz və məhəlləd axili yollarımız xeyli ya tam qaranlıq, ya da yarıqaranlıq idi. Zibil qutuları çatışmadığından və nəzarət olmadığından əksər yerlərdə qeyri-qanuni poliqonlar yaradılmışdı. Əhali tərəfindən müxtəlif məişət tullantıları hara gəldi atıldığından qalaq-qalaq yığılmış zibil topaları antisanitariya mənbəyinə çevrilmişdi. Hətta daşınmayan zibillərin yandırılması hallarına da tez-tez rast gəlinirdi. Kommunal xidmətlərin səviyyəsi çox aşağı idi. Elektrik enerjisi, içməli su və təbii qazla təchizat, kanalizasiya xidməti qənaətbəxş deyildi. Bəzi evlər və binalar qazlaşdırılmadığından payız-qış mövsümündə Nizami rayonunda yaşayanlar üçün çox acınacaqlı durum yaşanırdı. İstismar müddətini başa vurmaqda olan elektrik xətləri, dayaqlar, uzun müddət əsaslı, yaxud cari təmir edilməyən transformator məntəqələri və sair üzündən texniki qəzalar baş verir, əhali saatlarla, bəzən günlərlə elektrik enerjisi ilə normal təchizatdan məhrum olurdu.

Paytaxtın digər rayonlarında olduğu kimi, iyirmi il öncə Nizami rayonunda da iş yerləri bağlandığından, əksər fabriklər, müəssisələr, zavodlar və digər istehsal və emal müəssisələri öz fəaliyyətlərini dayandırdığından işsizlik, yoxsulluq halları çoxalmışdı. Rayonda küçə ticarəti geniş vüsət almışdı. Keyfiyyətsiz məhsulların satışı kütləvi hal almışdı. Əksər vətəndaşlar küçə ticarəti yolu ilə pul qazanmaqla gündəlik tələbatlarını ödəməyə çalışırdılar. Parklar, bağlar və digər istirahət yerləri çox bərbad vəziyyətdə idi. Sınıq-salxaq oturacaqlar, lampaları sındırılmış işıq dirəkləri, qurumuş ağaclar və kollar, kortəbii böyümüş qolu-budaqlı ağaclar sanki "göz dağı"na çevrilmişdi. Əhalinin normal istirahətindən söhbət gedə bilməzdi. Amma illər keçdikcə yuxarıda sadaladığım problemlər



öz həllini tapıb. Çünki illərdir Nizami rayonunda həyata keçirilən məqsədyönlü tədbirlər, yenidənqurma, abadlaşdırma, tikinti-quruculuq işləri rayonumuzun simasını çox dəyişib. Nizami rayonunun inkişafında Bakı şəhərinin və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarının qəbul edilməsi, sözügedən proqramlar əsasında hazırlanmış tədbirlər planlarının qəbulu və icrası mühüm rol oynayıb. Məhz haqqında danışılan tədbirlərin nəticəsidir ki, rayonun sosial-iqtisadi, demoqrafik və sair göstəriciləri ilbəil yüksəlməkdədir. Dediklərimizi sübuta yetirmək üçün 2015-ci ilin 9 ayı ərzində əldə olunmuş bəzi göstəriciləri diqqətə çatdırmaq istəyirəm. Belə ki, ötən ilin yanvar-sentyabr ayları ərzində rayonumuzda fəaliyyət göstərən müəssisələr tərəfindən 346,9 milyon manat dəyərində məhsul istehsal edilib. İstehsal olunmuş məhsulun 24,8 faizi qeyri-dövlət sektoruna aiddir. Sənayenin dövlət sektorunda 260,9 milyon manatlıq və ya ümumi istehsalın 75,2 faizi qədər məhsul istehsal edilib və xidmətlər göstərilib. Müəssisələr tərəfindən bazar münasibətlərinin düzgün qurulması nəticəsində 2015-ci ilin 9 ayında istehlakçılara 364,4 milyon manat dəyərində məhsul göndərilib. 2015-ci ilin 1 oktyabr vəziyyətinə müəssisələrin anbarlarında hazır məhsul qalığının həcmi 1,7 milyon manat olub. Ötən ilin 9 ayında rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələri hesabına əsas kapitala 162,8 milyon manat həcmində investisiya yönəldilib. Dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar əsas kapitala 81,6 min manat (50,1 faiz), qeyri-dövlət mülkiyyətinə məxsus müəssisələr isə 81,2 milyon manat (49,9 faiz) sərmayə yönəldiblər. Adambaşına düşən investisiyaların həcmi il ərzində 836,6 manat olub. 2015-ci ilin yanvar-sentyabr aylarında istifadə edilmiş investisiyaların 150,9 milyon manatı və ya 92,7 faizi tikinti-quraşdırma işlərinə sərf edilib.

2015-ci ilin yanvar-senyatbr aylarında Nizami rayonunda 1847 yeni iş yeri açılıb. Ondan 307-si yeni açılmış, 210-u mövcud müəssisə və təşkilatlara, 1330-u isə fiziki şəxslərə aiddir. Ümumilikdə 2003-cü ildən bu günə kimi rayonda 28 min 12-si daimi iş yeri olmaqla 28 min 109 yeni iş yeri açılıb. Rayon ərazisində fəaliyyət göstərən sənaye müəssisələrində yüzlərlə rayon sakini çalışır. Qeyd edək ki, sənayenin müxtəlif sahələrini özündə birləşdirən Nizami rayonunda Heydər Əliyev adına Bakı Neft Emalı zavodu, Elektron Hesablama Maşınları zavodu, Peyk zavodu, "NJT-2000" firması, "Bakı Şərab-1" ASC, "Azərtunelmetrotikinti" SC-nin Dəmir-beton Konstruksiyaları zavodu, "Körpü Tunel" ASC, "Bakı Diyircəkli Yastıq" ASC, "European-Tobacco Baku" ASC, "Bakı Yağ-Qida Sənaye" ASC, "Veysəloğlu" MMC, "Kaspi-Yıldız" MMC kimi müəssisələr, 18 bank filialı, Nizami Telefon Qovşağı, 7 rabitə şöbəsi, iri ticarət və iaşə mərkəzləri fəaliyyət göstərir. 2015-ci ilin 9 ayı ərzində rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də müvafiq işlər görülüb, 103 saylı uşaq bağçası əsaslı təmirdən sonra istifadəyə verilib. "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na əsasən 12 saylı tam orta məktəbdə 200 yerlik, 32 saylı tam orta məktəbdə 640 yerlik və 238 saylı tam orta məktəbdə 320 yerlik əlavə korpusların tikintisi davam etdirilib. Bakı Texniki Kollecinin və Kimya-biologiya təmayüllü respublika liseyinin isə əsaslı təmiri və yenidənqurulması başa çatdırılıb. Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı"na töhfə vermək məqsədilə Nizami Rayon İcra Hakimiyyəti tərəfindən daxili resurslar hesabına 110 və 172 saylı uşaq bağçalarının hər birində 80 yerlik əlavə korpus tikilib. Keşlə qəsəbəsi, Babək prospekti, 2269-cu məhəllədə 100 yerlik, T.Abbasov küçəsi 28 ünvanında isə 120 yerlik yeni özəl uşaq bağçalarının inşası isə davam etdirilir. Keşlə qəsəbəsində ötən dövr ərzində müxtəlif ünvanlarda 14 ədəd zibil meydançası bərpa olunub. Yeni 3 ədəd zibil meydançası tikilib. 18 ədəd meydança rənglənib. 3 ünvanda süni yaradılmış məişət tulantıları toplantısı ləğv edilib. Qəsəbədə məskunlaşmış məcburi köçkünlərinsu təchizatını yaxşılaşdırmaq məqsədilə 500 metr yeni su xətti çəkilib. 10 ailəyə dam örtüyünün təmirinə köməklik göstərilib. 400 ailəyə bayram sovqatı verilib. Qəsəbədə ayrı-ayrı ünvanlarda 18 min kvadratmetr asfalt örtüyü salınıb. Nizami rayonu Mikayıl Əliyev küçəsinin Babək prospektinə doğru olan 1450 metrlik hissəsinin 700 metr ərazisində təmir işləri aparılır. Sözügedən ərazidə təmir-tikinti işləri yekunlaşandan sonra küçənin digər hissəsinin, 750 metrlik ərazinin də təmirinə başlanılacaqdır. Təmir-tikinti işləri zamanı küçənin köhnə asfalt-beton örtüyü yenisi ilə əvəzlənir. Ümumilikdə sözügedən əraziyə 2 qat olmaqla 30 min kvadratmetr sahəyə yeni asfalt-beton örtüyünün döşənməsi planlaşdırılır. Mikayıl Əliyev küçəsindən Babək prospektinə çıxan hissəsinin 150 metrlik bir ərazisində genişləndirmə işləri görüləcək ki, bunun da nəticəsində həmin istiqamətdə yol təqribən 3-4 metr genişləənəcək. Bu ərazidə yağış sularının kənarlaşdırılması üçün yağış-kanalizasiya sisteminin 1 kilometrdən artıq hissəsi qurulub. Piyadaların normal və təhlükəsiz hərəkəti üçün yol boyu hər iki istiqamət üzrə 1,5 metr enində yeni piyada səkiləri yaradılıb. Səkilərin kənarlarına 3 min poqonmetrə yaxın səki daşları düzülür. Su və kanalizasiya xətlərində baş vermiş qəza halları mütəmadi aradan qaldırılıb, yağış su barmaqlıqları təmizlənib.

Yuxarıda qeyd etdik ki, illər əvvəl parklar, bağlar və digər istirahət yerləri çox bərbad vəziyyətdə olduğundan onlar əhalinin xoş istirahətində heç bir rol oynaya bilmirdilər. Ancaq uzun illərdir bu problem də öz həllini tapıb. Belə ki, Azərbaycanda ilk dəfə Heydər bağı park-bulvarı rayonun Naxçıvanski küçəsindəki ərazidə salınıb. Həmin ərazi bu gün Bakının ən gözəl məkanlarından biri olmaqla yanaşı, böyük insan axınının üz tutduğu bir istirahət guşəsinə çevrilib. Belə ki, əhalinin sıx yaşadığı bu ərazidə sakinlərin istirahətinin təşkili üçün hər cür şərait yaradılıb. Ərazisi 56 min kvadratmetr, uzunluğu 800, eni 70 metr olan parkda fəvvarələr kompleksi yaradılmış, musiqili fəvvarə quraşdırılıb. Burada inşa olunan terrasın sahəsi min kvadratmetrdən çoxdur. Park-bulvarın maraqlı elementlərindən biri də



müxtəlif əyləncə növlərinin bir arada təqdim olunmasıdır. Burada yaradılan şərait yay vaxtı sakinlərin istirahətini daha maraqlı təşkil etməyə imkan verir. Nizami rayonu ərazisində həmçinin Park Bulvar fəaliyyət göstərir. Rayon ərazisindəki Heydər Bağı-Park Bulvar insanların ən çox maraq göstərdiyi məkanlardandır.

2015-ci ilin 9 ayında Nizami Rayon İcra Hakimiyyətinə vətəndaşlardan 1024, o cümlədən Azərbaycan Respublikası Prezidenti Administrasiyasından 309, digər rəhbər və mərkəzi orqanlardan 292 müraciət daxil olub. Ərizələrdə toxunulan məsələlər üzrə mövzuların təhlili göstərir ki, onlardan 24,8 faiz mənzil məsələləri, 33,2 faiz tikinti məsələləri, 8,6 faiz torpaq məsələləri, 8,5 faiz məişət problemləri və maddi yardım, 24,9 faiz isə digər məsələlər təşkil edib. 237 müraciətin icrası nəzarətə götürülüb və bu da problemlərin müsbət həll olunmasına öz təsirini göstərib. Binaların istiliklə təchizatı, həyətlərin abadlaşdırılması, yolların asfaltlanması və maddi yardım göstərilməsinə görə görülən işlərlə əlaqədar vətəndaşlardan 20 minnətdarlıq məktubu daxil olub. Mövcud problemlərin, vətəndaşların sosial əhəmiyyətli sifarişlərinin, tələb və təkliflərinin öyrənilməsi məqsədilə ayda iki dəfədən az olmayaraq yerlərdə Nizami Rayon İcra Hakimiyyəti başçısının sakinlərlə səyyari görüşləri keçirilir.

Yuxarıda sadaladıqlarımız bir daha göstərir ki, Nizami rayonu gələcəkdə də təkcə Bakının deyil, respublikamızın sosial-iqtisadi inkişafında və ictimai-siyasi həyatında mühüm rol oynayacaq.

**Müşfiq CƏFƏROV,**
**"Respublika".**

*Yazı Nizami Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*